

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 240 (21.392)

*8 dekabr 2015-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## İ.R.Mustafayevanın Naxçıvan Tibb Kollecinin direktoru vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İlhamə Rafiq qızı Mustafayeva Naxçıvan Tibb Kollecinin direktoru vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 7 dekabr 2015-ci il*

## Meliorasiya və su təsərrüfatı sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasına diqqət artırılır



***Naxçıvan Dövlət Universiteti və Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin təşkilatçılığı ilə elmi-nəzəri seminar keçirilib. Ali təhsil ocağında keçirilən seminarda universitetin Memarlıq və mühəndislik fakültəsinin Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi ixtisasının müəllim və tələbələri, eyni zamanda komitə əməkdaşları iştirak ediblər.***

Seminarı universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov giriş sözü ilə açaraq bildirib ki, son illər muxtar respublikada fəaliyyət göstərən nazirlik və təşkilatlarla ali təhsil müəssisələri arasında əməkdaşlığın möhkəmləndirilməsi öz bəhrələrini verməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası bu əməkdaşlığı inkişaf etdirmək, peşəkar kadr hazırlığının vəziyyətini yaxşılaşdırmaq və tələbələrin təcrübi biliklərinin artırılmasına kömək etmək, onları gələcəkdə işlə təmin etmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov tədbirdə çıxış edərək komitənin muxtar respublikada meliorasiya və irriqasiya sistemlərinin yaradılması, inkişafı və qarşıya çıxan problemlərin həlli istiqamətində gördüyü işlər barədə məlumat verib.

Qeyd olunub ki, komitənin balansında 382 kəhriz, 30-a qədər su anbarı, 108 nasos stansiyası və 856 subartezian quyusu var. Muxtar respublikada içməli və suvarma suyuna olan tələbatın ödənilməsi məqsədilə komitə tərəfindən ardıcıl tədbirlər həyata keçirilir. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq genişmiqyaslı işlər görülür. Azərbaycan Hökuməti ilə Asiya İnkişaf Bankı arasında bağlanan kredit müqaviləsinə əsasən, Naxçıvan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması məqsədilə supayıcı şəbəkə tikilib istifadəyə verilib, Azərbaycan Respublikası ilə İslam İnkişaf Bankının birgə maliyyələşdirdiyi və 2012-ci ildən həyata keçirilən "Naxçıvan Muxtar Respublikasında selə qarşı tədbirlər, suvarılan ərazilərin modernləşdirilməsi və genişləndirilməsi" və digər layihələr uğurla həyata keçirilməkdədir.

Komitə sədri çıxışının sonunda bildirib ki, muxtar respublikanın su ilə təminatı və əhalinin suya olan tələbatının ödənilməsi istiqamətində fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi yüksəkixtisaslı kadrların hazırlanması, onların iş yerləri ilə təmin olunması üçün lazımi tədbirlərin görülməsini bundan sonra da davam etdirəcəkdir.

Sonra komitə sədri tələbələrin suallarını cavablandırıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin baş məsləhətçisi Sabir Rzayev komitənin strukturuna tabe olan idarələrin fəaliyyəti barədə məlumat verib. Bildirilib ki, komitə muxtar respublikanın su təchizatı, kanalizasiya sistemlərinin çəkilişi, suvarılan ərazilərin genişləndirilməsi və modernləşdirilməsi vəzifələrini həyata keçirir.

Universitetin Meliorasiya və ekologiya kafedrasının müəllimi, Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin şöbə müdiri Səttar Nəsirov məruzəsində Naxçıvan Muxtar Respublikasında mütərəqqi suvarma üsullarının tətbiqindən, müxtəlif suvarma növlərinin fərqli və üstün cəhətlərindən danışıb.

**Mehriban SULTAN**

## Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının VI növbədənkənar konfransı keçirilib



***Dekabrın 5-də Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının VI növbədənkənar konfransı keçirilib.***

Konfransı giriş sözü ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov açaraq bildirib ki, Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının rəhbər orqanlarının fəaliyyətini təmin etmək məqsədilə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri müvafiq qərar imzalayıb. Qərara uyğun olaraq, Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının VI növbədənkənar konfransı keçirilir.

Sonra Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının İdarə Heyətinin üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Ehtimad Məmmədov hesabat məruzəsi ilə çıxış edib. Qeyd olundu ki, 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilən Yeni Azərbaycan Partiyası ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında elə bir tarixi yol keçib ki, bu yol həm də müstəqil Azərbaycanın müqəddəratını təyin edən mühüm bir tarixi mərhələ olub. Partiyamızın yarandığı tarixi ərəfə Vətənimiz və xalqımız üçün ağır sınaqlar, fəlakətlər dövrü idi. Bu zaman Naxçıvanda gedən mütərəqqi proseslərin bilavasitə müəllifi olan ümummilli liderimizin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı bir tərəfdən bütövlükdə xalqımızın yekdil arzusuna çevrilmişdisə, digər tərəfdən tarixin diktə etdiyi qaçılmaz, qarşısıalınmaz obyektiv tarixi zərurət idi. Məhz bu zərurətin ifadəsi kimi təsis edilən Yeni Azərbaycan Partiyası qısa müddətdə Azərbaycan dövlətçiliyinin əbədi varlığının qarantı və istiqlaliyyətin başlıca təminatçısı olan siyasi güc kimi 1993-cü ildə obyektiv tarixi şəraitin diktəsi ilə hakimiyyətə gəldi. Ümummilli liderimizin müstəqil Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illər müstəqilliyimizin möhkəmləndirilməsi və əbədi varlığı üçün bütün zəruri siyasi addımların atıldığı, müstəqil Azərbaycanın dövlətçilik konsepsiyasının nəzəri əsaslarının formalaşdırıldığı və real həyatda bu əsasda möhkəm bünövrənin qoyulduğu taleyüklü bir mərhələ oldu. Ulu öndər Heydər Əliyev özünün dərin siyasi zəkasının, zəngin və mükəmməl dövlətçilik təcrübəsinin məhsulu və şah əsəri olan müstəqil Azərbaycan Respublikasını gələcək nəsillərə miras qoydu.

Bildirilib ki, Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı 17 iyul 2004-cü ildə təsis edilib. O zaman partiyanın 11 kənddə 20 ərazi ilk partiya təşkilatı fəaliyyət göstərirdi. Bu təşkilatlarda 1215 nəfər partiya üzvü birləşirdi. Üzvlərin 170 nəfəri qadınlar, 343 nəfəri isə gənclər idi. Təşkilat yarandıqdan bu günə kimi partiya sıralarına 1649 nəfər qəbul edilib. Bunlardan 738 nəfərini qadınlar, 903 nəfərini isə gənclər təşkil edir. Hesabat dövründə partiya sıralarına 200 nəfər qəbul edilib ki, onlardan 57 nəfəri ali təhsilli, 24 nəfəri orta ixtisas, 119 nəfəri orta təhsilli, 122 nəfəri qadınlar, 145 nəfəri isə gənclər olub. Bu gün Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı 46 ərazi ilk partiya təşkilatında 2662 nəfər üzvü birləşdirir. Partiya üzvlərinin 948 nəfəri qadınlar, 715 nəfəri gənclərdir.

Məruzə ətrafında Yeni Kərki kənd tam orta məktəbinin müəllimi, Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı Gənclər Birliyinin üzvü Kənan Məmmədov, 2 nömrəli Qarabağlar kənd tam orta məktəbin müəllimi, Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı Qadınlar Şurasının üzvü Tutu Əhmədova çıxış ediblər. Çıxış edənlər bildiriblər ki, tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası bu gün Heydər Əliyev dövlətçilik və idarəçilik məktəbinin layiqli yetirməsi, ölkə Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf edir, dövlətin daxili və xarici siyasətinin uğurla həyata keçirilməsində böyük rol oynayır.

Daha sonra konfransda təşkilati məsələlərə baxılıb. Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının 19 nəfərdən ibarət şurasının, 9 nəfərdən ibarət İdarə Heyətinin, Qadınlar Şurasının, Gənclər Birliyinin İdarə Heyətinin və Nəzarət-təftiş qrupunun üzvləri seçilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quluyeva Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının sədri seçilib.

Sevda Quluyeva çıxış edərək ona göstərilən etimada görə konfrans iştirakçılarına minnətdarlığını ifadə edib, bu şərəfli və məsuliyyətli işin öhdəsindən gəlmək üçün səylə çalışacağını bildirib.

## Əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər davamlı xarakter daşıyır

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq olunan "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram" Naxçıvan şəhərində bir çox istiqamətdə həyata keçirilən tədbirlərə stimul verib.***





Ötən müddətdə proqramın icrası istiqamətində görülən işlər muxtar respublika paytaxtında əhəmiyyətli dəyişikliklərə səbəb olub. Həyata keçirilən tədbirlər sırasında əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması mühüm yer tutur. Son illərdə muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Naxçıvan şəhərində də mənzil tikintisinin həcmi artıb. Yeni yaşayış binalarının tikilməsi və mövcud binaların əsaslı şəkildə yenidən qurulmasında əsas məqsəd sakinlərin rahatlığının təmin olunması, onların yaşayış şəraitinin daha da yaxşılaşdırılmasıdır.

Bu sahədə görülən işlərin davamı kimi hazırda Naxçıvan şəhərinin Əliqulu Qəmküsar küçəsində 8 mərtəbəli yeni yaşayış binasının tikintisi sürətlə aparılır. Tikinti işlərinə cari ilin mart ayında başlanılıb. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən qısa müddətdə binada hörgü işləri başa çatdırılıb, dam örtüyü vurulub. 450 kvadratmetr sahədə ucaldılmış 8 mərtəbəli yaşayış binasında hazırda pəncərələr salınır, daxildə suvaq işləri aparılır. Eyni zamanda yaşayış binasının fasadında birinci mərtəbəyədək olan hissənin üzlük daşla üzlənməsinə başlanılıb.

Qeyd edək ki, yaşayış binasında, ümumilikdə, 32 mənzil yerləşir ki, bunlardan 8-i üçotaqlı, 24-ü isə ikiotaqlıdır.

Həyata keçirilən quruculuq tədbirləri sırasında zabitlərin də mənzil-məişət şəraitinin yaxşılaşdırılması önəmli yer tutur. Naxçıvan şəhərinin Babək məhəlləsində Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin zabitləri üçün yeni yataqxana binasının tikilməsi zabit ailələrinə göstərilən qayğının davamıdır.

"Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən tikilmiş bina zirzəmi ilə birlikdə 7 mərtəbədən ibarətdir. İki girişi olan 48 mənzilli yataqxana binasının zirzəmi hissəsi bərbərxana, anbar, camaşırxana, yeməkxana və sair üçün nəzərdə tutulub. Hazırda burada son tamamlama işləri görülür, ətrafda abadlıq və yaşıllaşdırma işləri həyata keçirilir.

Yeni yataqxana binası Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində xidmət edən zabitlərin mənzil-məişət şəraitini yaxşılaşdıracaqdır.

**Xəbərlər şöbəsi**

# Yeni inkişaf dövrünü yaşayan Şahbuz rayonunun təhsil uğurları da ilbəil artır



Şahbuz şəhər 1 nömrəli tam orta məktəb

***1930-cu ilin dekabr ayında yaradılan Şahbuz rayonunun tarixinə nəzər salarkən burada həmin tarixdən 34 il əvvəl yaranmış məktəbin məzunları olan maarifpərvər ziyalıların hərtərəfli fəaliyyəti diqqəti cəlb edir. Həmin məktəbin yetirmələri xalq təsərrüfatının bütün sahələrində fəallıq göstərmişlər. Arxiv materialları ilə tanış olarkən məndə belə bir təəssürat yarandı ki, Şahbuzun bir rayon kimi yaradılmasında ilk təhsil ocağımız Şahbuzkənd məktəbinin ziyalıları böyük təşəbbüskarlıq göstərmişlər. Elə bu baxımdan 119 yaşlı məktəbin yaradıcıları və onun tarixi haqqında danışmağa dəyər. Tarixi mənbələrə əsasən demək olar ki, 1896-cı ildə Naxçıvan qəzasının Şahbuz uyezdində açılmış ilk ikisinifli rus-tatar məktəbi bölgədə uzun müddət yeganə təhsil ocağı olmuşdur.***

Məktəb uzun və tarixi bir yol keçmiş, öz ənənələrini yaratmışdır. Xalq şairi Məmməd Araz, dilçi-alim Firudin Hüseynov, Azərbaycan Respublikasının Əməkdar artisti Yaşar Səfərov, tibb elmləri doktoru Şəmsi Əsədov və başqa ziyalılarımız bu məktəbdə təhsil almış, gələcək həyat yollarını elm nuru ilə işıqlandırmışlar.

Tarixi mənbələrdə göstərilir ki, Şahbuzkənd məktəbinin ilk nəzarətçi-müdiri Məmməd Zamanbəyov olmuşdur. Həmin vaxt ikisinifli rus-tatar məktəbində 34 şagird təhsil almışdır. Məktəb binasının olmadığı ilk vaxtlarda dərslər Naxçıvan xanlarının bu kənddəki yaşayış evlərində keçirilmişdir. Sonralar əslən Şahbuzkənddən olan Səttar xan öz torpaq sahəsindən bir qədər ayıraraq məktəb binasının tikilməsi üçün vermiş və imkanlı şəxslər yeni məktəb binası tikdirmişlər. Elə buna görə sonrakı illərdə şagirdlərin sayı artaraq 50-yə çatmışdır. Həmin illərdə Zərifə xanım Kəngərlinski və Zəhra Seyidovanın da bu məktəbin məzunu olması onu göstərir ki, burada qızlar da təhsil almışlar.

Bu təhsil ocağı 1937-1938-ci tədris ilində artıq orta məktəb kimi fəaliyyət göstərmişdir. XX əsrdə isə rayonda bir çox yeni məktəblər açılmışdır. Kəndlərdə məktəblər açılsa da, elmə, təhsilə maraq göstərən gənclərin sayı artsa da, bu yaşayış məntəqələrinə dövlət səviyyəsində qayğı göstərilmədiyindən məktəb yararsız binalarda fəaliyyət göstərmişdir. Yaşlı kənd sakinləri o dövrdə kəndlərdə at-ulaq yolundan başqa, bir də insanların yaratdıqları məhəllə yollarının nə qədər bərbad vəziyyətdə olduğunu acı xatirələrlə yada salırlar. 1930-cu ildə rayon statusu alan Şahbuzun, demək olar ki, bütün kəndləri öz miskin görkəmi ilə sanki bir-birinin təkrarı idi. Heç bir xidmət təşkilatının fəaliyyəti hiss olunmayan kəndlərdəki vəziyyətlə rayonun mərkəzi sayılan Şahbuz qəsəbəsindəki vəziyyət bir-birindən fərqlənmirdi. Çox uzaq keçmiş olmadığına görə, yəqin ki, oxucularımız da bu fikirlərin sübuta ehtiyacı olmadığını qəbul edərlər. Məlum məsələdir ki, nəinki Şahbuz, muxtar respublikanın bütün bölgələrində eyni ab-hava olmuşdur. Çünki Sovet hakimiyyəti illərində bütün başqa sahələrdə olduğu kimi, məktəblərə dövlət səviyyəsində lazımi qayğı göstərilmədiyindən, demək olar ki, bütün məktəb binaları illər keçdikcə yararsız vəziyyətə düşmüşdür. Buna baxmayaraq, məktəblər uzun illər istismar müddəti çoxdan başa çatmış köhnə binalarda fəaliyyətini davam etdirmişdir. Müəllim və şagirdlər, əsasən, payız-qış mövsümündə çətinliklərlə üz-üzə qalmışlar. O vaxt nə çarə tapan, nə də çarə axtaran olmadığından bu problem ilbəil dərinləşmiş və təhsilin keyfiyyətinə mənfi təsir göstərmişdir.



Biçənək kənd tam orta məktəbi

1970-ci ildən etibarən ölkəmizdə bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də inqilabi yeniliklər dövrü başlanmışdır. Ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi ilə dövlətimizin gələcək inkişafında böyük rolu olan ziyalılar ordusunun yaranması və kadrların hazırlanması məqsədilə yeni təhsil strategiyasının tətbiqi əsas məsələyə çevrilmişdi. Ötən əsrin 70-80-ci illəri ölkəmizin bütün yaşayış məntəqələrində yeni məktəblərin açılışı ilə yanaşı, təhsilin hərtərəfli inkişafı məqsədilə zəruri islahatların həyata keçirilməsi tarixi kimi də yadda qalmışdır. Həmin illərdə Şahbuz rayonunda da təhsilin inkişafına böyük diqqət və qayğı göstərilmişdir. Rayonun Nursu, Kükü, Kolanı, Mahmudoba və başqa kəndlərində yeni məktəb binalarının tikintisi, bir sıra məktəb binalarının təmiri həyata keçirilmişdir. Bununla yanaşı, təhsilin keyfiyyətinə önəmli təsir göstərən zəruri islahatların reallaşdırılması da təhsilə marağı gücləndirmişdir. Həmin illərdə yüzlərlə şahbuzlu gənc Azərbaycanın və Rusiyanın qabaqcıl ali məktəblərində təhsil almışdır.

İllər ötdü, tarixin sərt sınağından alnıaçıq çıxdıq. Azadlıq eşqi ilə ayağa qalxan xalqımızın üz-üzə qaldığı faciələrin yaratdığı xaos zamanında Tanrı ulu öndər Heydər Əliyevi Naxçıvana xilaskar göndərdi. Naxçıvanda fəaliyyət göstərdiyi ən çətin zamanlarda həmişə ümummilli liderimizin yanında olan ziyalılarımız Onun məramının, məqsədinin yerinə yetirilməsində əllərindən gələni etdilər. Bütün bunlar Şahbuzun da bu günə kimi düşməndən qorunmasına, sərhədlərinin möhkəmlənməsinə və beləcə, qərinələri yola salmış yurd yerimizin hərtərəfli inkişafına səbəb oldu.

Ulu öndərin yolunun uğurla davam etdirildiyi Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı istiqamətində də mühüm tədbirlər həyata keçirilmişdir. Muxtar respublikada təhsilə xüsusi qayğı göstərilməsinin nəticəsidir ki, bir neçə ildir, Şahbuz kimi ucqar bir dağ rayonunun bu sahədə qazandığı uğurlar ölkə səviyyəsində qiymətləndirilir və əldə olunan uğurlar əks-səda doğurur. Təkcə 2014-2015-ci tədris ilində Şahbuz rayonunun məktəblərini 179 şagird bitirmiş, onlardan 92 nəfəri ali məktəblərə qəbul olunmuş, 25 abituriyent 500-700 intervalında bal toplamışdır. Şahbuz rayon məktəblərinin məzunlarının qəbul imtahanlarında topladıqları orta bal göstəriciləri respublika üzrə orta göstəricidən 8 faiz yuxarı olmuşdur.

Muxtar respublikamızda aparılan tikinti-quruculuq işlərinin əsas qolunu təşkil edən məktəb binalarının tikintisində perspektivin nəzərə alınması, sözsüz ki, gələcəkdə kəndlərdə bu sahədə hansısa bir problemin olmamasına təminat yaradır. Əgər hansısa bir kənddə məktəb tikintisi aparılırsa, burada həmin yaşayış məskəninin 30-40 il bundan sonrakı inkişafı da nəzərə alınır. Hazırda 60-70 şagirdin oxuduğu məktəb üçün 110-120 yerlik bina inşa olunursa, bu, əlbəttə ki, o məktəbin bir neçə il sonrakı fəaliyyətinə hesablanmışdır. Məktəb binalarında fənn kabinələrinin, laboratoriyaların, idman zallarının, gözoxşayan sinif otaqlarının yaradılması, məktəblərin kompüterlərlə təmin olunması şagirdlərin mükəmməl təhsil almasına xidmət edir. Yaşadığımız dövrün gətirdiyi yeniliklər sayəsində bugünkü şagird, sözsüz ki, dünənkindən öz dünyagörüşü, intellekt səviyyəsi, maraq dairəsi və tələbatı ilə kəskin fərqlənir.



Nursu kənd tam orta məktəbi

Şahbuz rayonunun 23 yaşayış məntəqəsində olan məktəblərdən 21-i bu gün müasir binalarda fəaliyyət göstərir. Bu təhsil ocaqlarının güclü maddi-texniki bazasının olması məktəblilərin hərtərəfli inkişafına təminat verir. Rayonda olan 6 məktəbdənkənar müəssisə üçün də yaraşıqlı və texniki təchizatı yüksək səviyyədə olan binalar inşa edilərək istifadəyə verilmişdir. Qocaman təhsil ocaqlarının məzunlarının nəvələri, nəticələri olan bugünkü şagirdlər əgər öz atalarından, babalarından məktəb illərinin acı xatirələrini eşidib təəssüflənirlərsə, gələcək nəsillər bugünkü şagirdlərə göstərilən böyük qayğının təməlində nə qədər möhtəşəm bir vətən sevgisinin durduğunu söyləyəcəklər.

Yazımın əvvəlində 2016-cı ildə 120 yaşı tamam olacaq məktəbdən, bu məktəbin şagirdlərinin, müəllimlərinin çəkdiyi əziyyətdən söhbət açdım. Şahbuz rayonunun 120 yaşı qeyd olunanda bu günümüz haqqında danışanlar inkişafdan, uğurlardan bəhs edəcəklər. Ona görə ki, yeni inkişaf mərhələsinin tələblərinə cavab verən və sistemli şəkildə aparılan islahatlar ilbəil öz bəhrəsini verərək yurd yerlərimizə yeniliklər gətirməklə yeni bir tarix yazmışdır. Muxtar respublikanı yeni bir məkana çevirən islahatların həyata keçirilməsi nəticəsində 85 yaşlı Şahbuz rayonunun da siması tamamilə dəyişmişdir.

Yeni infrastruktur sahəsi olan kənd mərkəzlərinin yaradılması, xidmət təşkilatlarının işinin günün tələbləri səviyyəsində qurulması, yeni yolların, körpülərin, səkilərin salınması, təmizliyin, səliqə-sahmanın göz oxşaması, istehsal müəssisələrinin yaradılması, yerli məhsulların istehsalının artırılması, yaşıllıq sahələrinin genişləndirilməsi rayonun bundan sonrakı inkişafına və intibahına yol açmışdır. Hələ 2007-ci ildə Şahbuz qəsəbəsinə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə şəhər statusunun verilməsi də rayonun yeni inkişaf dövrünə qədəm qoymasına stimul yaratdı. Quruculuq prosesinin tədricən ucqarlara doğru yayılması kəndlərimizin yeniləşməsinə və bugünkü inkişafına səbəb oldu.

Bunun nəticəsidir ki, indi artıq Ağbulaq, Biçənək, Aşağı Qışlaq kimi gözəlliyi gözoxşayan kəndlərimiz muxtar respublika üzrə keçirilən abad kənd müsabiqəsinin qalibi olmuşlar. Bütün bunlar deməyə əsas verir ki, 85 yaşlı rayonda son 20 ildə qurulanlar, yaradılanlar böyük vətən sevgisinin və göstərilən qayğının nəticələridir. 1930-cu ildə yaranan rayonun 1970-ci ilə kimi inkişaf tarixinə nəzər salarkən, ürəkaçan heç bir fakta rast gəlinmir. Amma əsası ötən əsrin 70-ci illərində qoyulan inkişafın müstəqillik illərində davam etdirilməsi bugünkü tərəqqiyə səbəb olmuşdur.

Bu gün ən xoşbəxt günlərimizi yaşayırıq. İndi muxtar respublikamız öz gözəlliyi ilə ölkəmizin qolları üstə bir gül çələngini xatırladırsa, Şahbuz rayonu da o çələngin bir hissəsidir. Şahbuz rayonu indi gülüstanı xatırladır. Dağlar qoynundakı rayon bağlar qoynunda bir gözəllik məskəni kimi yolçunu yoldan eyləyir.

***Son söz əvəzi:*** ***Müdriklərdən biri deyib ki, cəmiyyət yaranışından dahilərin, böyük şəxsiyyətlərin, ürəyində vətən sevgisi olan insanların çiyinləri üzərində dayanmışdır. Bir budağın sınması da, bir insanın faciəsi də onların qəlbini kövrəltmişdir. Ömrü boyu onlar bir ürəkdən, iki əldən hamıya pay vermişlər. Şahbuz rayonunun sakinləri müstəqillik illərində bunun şahidi oldu. İnanırıq ki, bundan sonra da yaşayacağımız illərdə məktəblərin və rayonun nailiyyətləri, uğurları daha da artacaq.***

**Şəhla NƏBİYEVA**

# Dövlət Miqrasiya Xidməti Ordubad rayonunda maarifləndirici tədbir keçirib

***Dekabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən Ordubad rayonunda tədbir keçirilib.***

Ordubad Rayon Polis Şöbəsinin sahə inspektorlarının və inzibati ərazi dairəsi üzrə nümayəndələrin iştirak etdiyi tədbirin keçirilməsində məqsəd miqrasiya sahəsində iştirakçıların maarifləndirilməsi olub.

Tədbiri giriş sözü ilə Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli açaraq son illərdə rayonda əhalinin məşğulluğunun təmin olunması sahəsində görülən işlərdən, hazırda əmək miqrantlarının maraq göstərdiyi sahələrdən, bu sahələrdə yerli ixtisaslı kadrların yerləşdirilməsinin vacibliyindən söz açıb.



Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəis müavini Elnur Məmmədov əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin əmək fəaliyyətinə dair məhdudiyyətlər, onların ölkəmizdə işə cəlb olunması və respublikamızda əmək miqrasiyasının hüquqi tənzimlənməsi barədə məlumat verib. Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında 10 gündən artıq müvəqqəti olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər olduğu yer üzrə qeydiyyata alınmalıdırlar. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınması üçün dövlət rüsumu ödənilmir. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər olduğu yerdən getdikdə qəbul edən tərəf və ya şəxs özü bu barədə şəxsən Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinə məlumat verir və bu məlumat əsasında onlar olduğu yer üzrə qeydiyyatdan çıxarılırlar. Qeyd olunub ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verilməsinə əsas olan hallar mövcud olduqda Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma və ya müvəqqəti yaşama müddətinin bitməsinə azı 30 gün qalmış bu barədə icazə alınması üçün şəxsən və ya qanuni nümayəndələri vasitəsilə müraciət etməlidirlər.

Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşlarından Zakir Məmmədovun, Rahib Kərimovun, Şahin Nəbiyevin çıxışları olub. Çıxışlarda miqrasiya sahəsində ölkəmizdə, eləcə də muxtar respublikamızda həyata keçirilən kompleks tədbirlərdən, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyətindən, onların ölkə ərazisində müvəqqəti olma müddətlərinin uzadılmasından, müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsindən söhbət açılıb. Bundan başqa, ölkə ərazisində haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə işəgötürənlər tərəfindən fərdi icazələrin alınması və müddətlərinin uzadılması, onların yaşayış yerləri üzrə qeydiyyata alınması prosedurları, miqrasiya sahəsində mövcud qanunvericiliyin tələblərinin pozulmasına görə məsuliyyət, həmçinin miqrasiya ilə bağlı digər məsələləri tənzimləyən qanunvericilik aktları barədə də tədbir iştirakçılarına ətraflı məlumat verilib.

**Səbuhi HÜSEYNOV**

## Daşınmaz əmlak və torpaq məsələlərinin həllinə diqqət artırılır

*Muxtar respublikada iqtisadiyyatın bütün sahələrindəki dinamik inkişaf Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin qarşısına mühüm vəzifələr qoymuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarının icrası, sessiya və müşavirələrdə verilmiş tapşırıqların yerinə yetirilməsi istiqamətində işlər cari ilin noyabr ayında da davam etdirilmişdir.*

Daşınmaz əmlakın hüquqi ekspertizası və reyestrinin aparılması sahəsində görülən işlərin nəticəsi olaraq muxtar respublika üzrə 523 daşınmaz əmlak obyekti qeydiyyata alınmışdır.

Noyabr ayında muxtar respublikada ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yaranmış 68 yeni daşınmaz əmlak obyektinə ünvanlar verilmiş və ünvan xəritələrində qeydiyyatı aparılmışdır. Komitənin mütəxəssisləri tərəfindən Babək qəsəbəsinin Qoşadizə məhəlləsində mövcud olan nəqliyyat infrastrukturu obyektləri yerində dəqiqləşdirilərək xəritə üzərinə köçürülmüşdür. Kameral şəraitdə Qoşadizə məhəlləsindəki nəqliyyat infrastrukturu obyektlərinə şərti küçə adları verilmiş, Babək qəsəbəsinin yeni ünvan xəritəsinin layihəsi hazırlanmışdır.

Komitənin və Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssislərinin iştirakı ilə Kəngərli rayonunun dövlət ehtiyat fondu torpaqlarında 996 hektar, qış otlaq sahələrində isə 1030 hektar olmaqla, cəmi 2026 hektar əkinəyararlı torpaq sahəsində müvafiq ölçü işləri aparılmış və xəritələşdirilmişdir. Həmçinin Şərur rayonunun dövlət ehtiyat fondu və qış otlaq sahələrində olan əkinəyararlı torpaq sahələri kameral şəraitdə müəyyənləşdirilmiş, həmin sahələrin əkin dövriyyəsinə cəlb olunması məqsədilə çöl-tədqiqat işlərinin aparılmasına başlanılmışdır.

Babək qəsəbəsinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanmış və torpaqların növləri üzrə uçotu aparılaraq komitənin məlumat bazasına daxil edilmişdir. Torpaq sahələri üzərində olan mülkiyyət hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması üçün 47 torpaq sahəsinin hazırlanmış planı və ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır.

Ötən ay Şərur rayonunun Püsyan, Babək rayonunun Yarımca, Ordubad rayonunun Çənnəb, Dırnıs və Düylün, Culfa rayonunun Dizə, Milax və Teyvaz kəndlərində vətəndaşlara göstərilən səyyar xidmət vasitəsilə 72 daşınmaz əmlak obyekti qeydə alınmışdır.

Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutu tərəfindən xəritə materiallarının və yerquruluşu sənədlərinin hazırlanması üçün Babək rayonunun Şəkərabad və Hacıvar bələdiyyələrinə aid sərhəd xəritələri və yerquruluşu materialları elektron variantda işlənib hazırlanmış, Babək qəsəbəsinin plana alınmış həyətyanı torpaq sahələri kameral şəraitdə müəyyənləşdirilmişdir. Culfa rayonunun Əlincə, Ərəfsə, Ərəzin, Göydərə, Gülüstan və Xanəgah kəndlərinin həyətyanı və pay torpaqları ortofotoplana əsasən dəqiqləşdirilərək xəritələri hazırlanmış, torpaqların elektron uçotu aparılmışdır.

Şərur rayonunun Cəlilkənd, Aşağı Aralıq və Yuxarı Aralıq kəndlərinin torpaqlarının qida maddələri ilə təminolunma kartoqramları, Kəngərli rayonunun Çalxanqala, Ordubad rayonunun isə Yuxarı Əndəmic və Gənzə kəndlərinin həyətyanı və pay torpaqlarının işçi planı işlənmişdir. Ordubad rayonu üzrə bütün bələdiyyələrin bonitirovka xəritələrinin hazırlanması başa çatdırılmışdır.

Babək rayonunun Sirab kəndində həyətyanı torpaq sahələrinin plana alınması yekunlaşdırılmış, əldə olunan materiallar məlumat bazasına daxil edilmiş, rayonun Qahab kəndində həyətyanı torpaq sahələrinin planaalma işlərinə başlanılmışdır. Kənddə mövcud olan 925 həyətyanı torpaq sahəsindən 215-i elektron taxometr vasitəsilə ölçülmüşdür. Hazırda həyətlərin plana alınması davam etdirilir.

Maarifləndirmə işlərinin davamı olaraq ay ərzində Naxçıvan Muxtar Respublikası Prokurorluğu ilə birlikdə Kəngərli, Şahbuz və Ordubad rayonlarında bələdiyyə sədrlərinin, inzibati ərazi dairələrinin və aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə torpaqlardan düzgün istifadə ilə bağlı maarifləndirici tədbirlər keçirilmiş, torpaqlardan təyinatına uyğun istifadə edilməməsi, torpaq üzərində mülkiyyət hüququnun pozulması, torpaqların istehsalat və məişət tullantıları ilə çirkləndirilməsi və qanunsuz tikinti işlərinin aparılmasına görə məsuliyyət barədə geniş izahat aparılmışdır.

Muxtar respublikamızda torpaqlardan təyinatı üzrə səmərəli istifadə edilməsinə dövlət nəzarətinin həyata keçirilməsi və vətəndaşların mülkiyyət hüquqlarının dövlət reyestrində qeydiyyata alınması istiqamətində Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi səylərini daha da artıracaqdır.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Heyvandarlığın inkişafına dövlət dəstəyi gücləndirilir

***Bu gün kəndli-fermer və heyvandarlıqla məşğul olan digər təsərrüfatların inkişaf etdirilməsi qarşıya qoyulan əsas məqsədlərdəndir. Dövlətimiz tərəfindən vaxtaşırı olaraq bu sahəyə maliyyə dəstəyi göstərilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu il avqust ayında imzaladığı "Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında", "Heyvandarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi haqqında" və "Heyvandarlığın maddi-texniki təchizatının yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında" sərəncamlar ölkədə heyvandarlığın inkişafına göstərilən qayğının davamlı xarakter aldığının göstəricisi kimi dəyərləndirilir.***

Sərəncamlara əsasən, heyvandarlıq məhsulları ilə təminatın daha da yaxşılaşdırılması, yüksək məhsuldar genetik potensialı olan heyvanların baş sayının artırılması və bu sahəyə marağın gücləndirilməsi üçün süni mayalanma yolu ilə alınmış hər baş buzova görə heyvan sahiblərinə 100 (yüz) manat həcmində subsidiya müəyyən edilib.



Muxtar respublikada ərzaq təhlükəsizliyi ilə bağlı tədbirlər çərçivəsində heyvan mənşəli məhsulların istehsalının daha da artırılması və cins iribuynuzlu damazlıq heyvanlara olan tələbatın ödənilməsi əsas prioritetlərdəndir. Bu məqsədlə muxtar respublikaya iribuynuzlu damazlıq heyvanların idxalının və heyvandarlıqla məşğul olan kənd təsərrüfatı məhsulları istehsalçılarına 50 faiz güzəştlə lizinq yolu ilə satışının həyata keçirilməsi üçün hər il dövlət büdcəsindən vəsait ayrılır.

Dövlətin heyvandarlıq məhsullarının artırılması istiqamətində atdığı addımlar bu sahədəki vəziyyətin yaxşılaşdırılmasında mühüm rol oynayır. Bu səbəbdəndir ki, heyvandarlıq məhsullarının istehsalında muxtar respublika üzrə artım dinamikası 2015-ci ilin ötən 11 ayında da saxlanılmışdır. Hazırda əhalinin heyvandarlıq məhsullarına olan tələbatını daxili istehsal hesabına ödəmək məqsədilə malqaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Bu məqsədlə sahibkarlara lizinq yolu ilə güzəştli şərtlərlə yüksək məhsuldar damazlıq heyvanların satılması işi davam etdirilir.

Heyvanlar arasında aparılan süni mayalanma tədbirlərini genişləndirmək məqsədilə süni mayalanma məntəqələrinin sayı bütün rayonları əhatə etməklə, 23-ə çatdırılmışdır. Davamlı olaraq məntəqələr yüksək məhsuldar törədici toxum və digər ləvazimatlarla təmin olunur. Nəticədə, 2014-cü ilin 10 ayına nisbətən 2015-ci ilin 10 ayında heyvandarlıq məhsullarının istehsalı və mal-qaranın məhsuldarlıq göstəriciləri artmışdır. Belə ki, 2015-ci ilin 10 ayında muxtar respublikada diri çəkidə 18,3 min ton ət, 74,2 min ton süd istehsal edilmiş, 2014-cü ilin yanvar-oktyabr ayları ilə müqayisədə ət istehsalı 13 faiz, süd istehsalı 1,9 faiz artmışdır.

Son 5 ildə muxtar respublikaya 1937 baş damazlıq mal gətirilmiş və kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştlə verilmişdir.

**Əyyub ABDULLAYEV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı***

***Muxtar respublikada həyata keçirilən iqtisadi siyasətin əsas məqsədlərindən biri də ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Bunun üçün daxili bazarın tələbatına uyğun yerli xammaldan səmərəli istifadə olunmaqla, idxaləvəzləyici və ixracyönümlü məhsullar istehsal edən müəssisələrin yaradılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Məhz həmin tədbirlərin nəticəsidir ki, bazar iqtisadiyyatının tələblərinə uyğun rəqabətqabiliyyətli müəssisələr yaradılır. Belə müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən "Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətidir.***

*İstehsal müəssisələri*

## "Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətində yeni çeşidlərdə məhsullar istehsal olunur



Dövlət maliyyə dəstəyi ilə müəssisədə 2003-cü ildə çörək, 2004-cü ildə makaron və peçenye, 2005-ci ildə isə süd məhsulları istehsalı sahələri yaradılmışdır. Bu istehsal sahələrində Almaniya, Türkiyə və İtaliya istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılmışdır. Müəssisənin fəaliyyətinin genişləndirilməsi, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla istehsal gücünün artırılması, yeni istehsal sahələrinin yaradılması və əlavə işçi qüvvəsinin cəlb edilməsi məqsədilə Sahibkarlığa Kömək Fondundan 2008-ci ildə əlavə dövlət maliyyə dəstəyi göstərilmişdir. Bu vəsaitlə inzibati binada və yeməkxanada əsaslı təmir işləri aparılmış, müəssisə müasir avadanlıqlarla təmin edilmişdir. Eyni zamanda çörək sexində istehsal gücü saatda 3000 ədəd çörək olan tam avtomatik yeni xətt istifadəyə verilmişdir. Burada çörək dəmir üzərində deyil, daş üzərində bişirilir ki, bu da məhsulun daha keyfiyyətli istehsalına şərait yaratmışdır. Daxili bazarın yüksəkkeyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasına öz töhfəsini verən "Gəmiqaya Bərəkət Qida Məhsulları" MMC-də istehsal sahələri ilbəil genişləndirilir. 2011-ci ildə Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla Şərq şirniyyatları istehsalı sahəsi yaradılmış, 2012-ci ildə kəpəkli çörək istehsalına başlanılmışdır. İnsan sağlamlığı üçün vacib elementlərlə zəngin olan kəpəkli çörək yüksəkkeyfiyyətli qida məhsulu kimi alıcılar tərəfindən rəğbətlə qarşılanmışdır. Elə bunun nəticəsidir ki, satışa çıxarılan kəpəkli çörəyə tələbat get-gedə artmış, ötən dövr ərzində kəpəkli çörək istehsalına keçid tam təmin olunmuşdur.

Müəssisədə istehsal olunan digər məhsullar da alıcılar tərəfindən rəğbətlə qarşılanır. Makaron sexində istehsal edilən müxtəlif növdə keyfiyyətli makaron 350, 500 qramlıq, 10 kiloqramlıq kisələrdə, Şərq şirniyyatları istehsalı sexində hazırlanan Azərbaycan milli şirniyyatları – şəkərbura, Ordubad və Şəki paxlavaları, müxtəlif çeşidlərdə qat-qat, şəkərçörək, milli şirin çörək, biskvit və digər unlu-qənnadı məmulatları nəfis tərtibatla bəzədilmiş taralarda satışa çıxarılır. Onu da qeyd edək ki, daxili bazarın tələbatına uyğun məhsullar istehsal edilən müəssisədə istehlakçı tələbatı öyrənilməklə mütəmadi olaraq məhsulun çeşidində və qablaşdırılmasında yeniliklər edilir, daha müasir texnoloji avadanlıqlar alınıb gətirilərək quraşdırılır. Cari ildə də bu istiqamətdə işlər davam etdirilmiş, Şərq şirniyyatları istehsalı sahəsində Türkiyənin "Uyğurlar Makina", Braziliyanın "Braluks" şirkətlərinin istehsalı olan, kompüterlə idarəetmə mərkəzi ilə təmin edilmiş avadanlıqlar alınıb quraşdırılmış, alıcı zövqünü oxşayan yeni çeşiddə, müasir dizaynda məhsul istehsalına başlanılmışdır. İstehsal olunan məhsullar muxtar respublikamızın ayrı-ayrı yaşayış məntəqələrində fəaliyyət göstərən xidmət mərkəzlərində satışa çıxarılmışdır.

Fermer və fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən xammal şəklində alınan süd məhsullarının vaxtında tədarük olunması da diqqət mərkəzində saxlanılır. Belə ki, bu məhsul xüsusi maşınlarla müəssisəyə daşınıb laborator analizdən keçirildikdən sonra istehsala buraxılır. Süddən kərə yağı, pendir, qatıq və ayran istehsal olunur. Ayran 200, kərə yağı 250, 400 qramlıq, 1 və 4 kiloqramlıq, pendir isə 0,5, 1 kiloqramlıq plastik və 17 kiloqramlıq dəmir taralarda qablaşdırılır.

Sanitar-gigiyenik qaydalara ciddi əməl olunduğu müəssisədə müasir avadanlıqlarla təchiz olunmuş iki laboratoriya fəaliyyət göstərir. Müəssisəyə daxil olan xammal və ya hazır məhsul həmin laboratoriyalarda analiz edildikdən sonra istehsala buraxılır və ya satışa çıxarılır.

İldən-ilə fəaliyyəti genişləndirilən müəssisədə çörək sexi 3, digər sexlər isə 1 növbəli iş rejimində fəaliyyət göstərir. Burada 200 nəfər çalışır.

Gələcəkdə müəssisədə istehsal olunan məhsulların Azərbaycanın digər regionlarında və xarici bazarlarda satışa çıxarılması nəzərdə tutulur. Bu məqsədlə kompleks tədbirlər həyata keçirilir.

"Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətində bütün istehsal prosesi İSO keyfiyyəti idarəetmə sisteminin və qida təhlükəsizliyinin tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə İSO 9001 və İSO 22000 sertifikatına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılmışdır.

Ayrı-ayrı ticarət obyektlərində alıcı və satıcıların bu yerli məhsullara olan münasibətini öyrəndik.

Sahibkar Zamin Səfərov: "Əvvəllər alıcılar xaricdə istehsal olunan ərzaq və qeyri-ərzaq məhsullarına üstünlük verirdilərsə, indi artıq muxtar respublikada istehsal olunan məhsullara üstünlük verilir. Yerli istehsal müəssisələri alıcıların rəğbətini qazanan keyfiyyətli məhsullar istehsal edərək rəqabətqabiliyyətli müəssisələrə çevrilmişlər".

İstehlakçı Həsən Qasımovun dediklərindən: "Gəmiqaya Bərəkət Qida Məhsulları"nın istehsal etdiyi Şərq şirniyyatları, kərə yağı, qatıq, ayran, makaron məhsullarının daimi alıcısıyam. Dadı, tamı ilə seçilən yerli məhsullar vaxtlı-vaxtında mağazalara çatdırılır. Özü də daha münasib qiymətə".

Sahibkar Rafiq Şükürov bizimlə söhbətində bildirdi ki, son illər muxtar respublikamıza alınıb gətirilən və lizinq yolu ilə sahibkarlara verilən məhsuldar cins mal-qara ət və süd istehsalının artımına səbəb olmuşdur. Təbii ki, ət və südün emal olunması üçün yaradılmış müəssisələr sahibkarları alıcı problemi ilə üzləşdirmir. Yəni sahibkarın şəxsi istifadəsindən çox olan ət və süd "Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin tədarükçüləri tərəfindən gündəlik qəbul edilir. Bu həm istehsalçı, həm də istehlakçı üçün sərfəlidir.

**Kərəm HƏSƏNOV**

***Naxçıvan qədim və zəngin tarixə malikdir. Bu ərazidə qədim Daş dövründən (Paleolit dövründən) başlayaraq insanlar yaşamışlar. Bunu Naxçıvanın ərazisində olan çoxsaylı abidələr də sübut edir. Tariximizin şahidi olan, onun daş yaddaşına çevrilən, nəsillərdən-nəsillərə yadigar qalan abidələrimizin hər biri Azərbaycan tarixində mühüm elmi əhəmiyyət daşıyır. Bu abidələr içərisində Araz çayının sol sahilində yerləşən XII əsrin memarlıq abidəsi olan Gülüstan türbəsini də qeyd etmək olar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 7 oktyabr 2015-ci ildə imzaladığı "Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında" Sərəncam bu sahə ilə məşğul olan tədqiqatçıların qarşısında yeni vəzifələr qoymuşdur. Həmin vəzifələrin yerinə yetirilməsi məqsədilə oktyabrın 8-də AMEA Naxçıvan Bölməsində "Gülüstan türbəsi" tədqiqat qrupu yaradılmışdır.***

## Gülüstan türbəsi ətrafında aparılan elmi araşdırmalar davam etdirilir

Tədqiqat qrupu Gülüstan türbəsində bərpa işlərinin elmi və tarixi əsaslarla aparılması üçün nəinki türbədə, həmçinin türbə ətrafındakı ərazilərdə də elmi araşdırmalara başlamış və tədqiqat əsərlərində olan məlumatların toplanılması zəruri hesab edilmişdir. Müəyyən olunmuşdur ki, bu abidə mükəmməl arxitektura quruluşuna görə Azərbaycanın digər bölgələri ilə yanaşı, Yaxın Şərq memarlıq abidələri içərisində özünəməxsus yer tutur. Azərbaycanın digər bölgələrindəki türbələrdən fərqli olaraq onun sərdabəsi kürsülük adlanan yerüstü hissədə yerləşir. Kürsülük xaricdən kəsik piramida, daxildən silindrik quruluşa malikdir. Planda kvadrat olan kəsik piramida yuxarıda düzgün onikibucaqlıya çevrilir. Onun üzərində isə onikiüzlü üst kamera yerləşir. Türbənin səthləri oyma həndəsi ornamentlərlə və dekorativ tağlarla bəzədilmişdir. Naxçıvan memarlıq məktəbinə məxsus digər türbələrdə olduğu kimi, bu abidədə də taxçaların içərisi incə həndəsi ornamentlərlə örtülmüşdür. Abidənin üst örtüyü dağılmışdır. Tədqiqatçılardan akademik Əbdülvahab Salamzadə, sənətşünas Kamil Məmmədzadə bu örtüyün onikisəthli piramida şəklində olduğu haqqında fikir söyləmişlər. Kamil Məmmədzadə qeyd etmişdir ki, türbənin onikitilli olan yuxarı hissəsində tillərin tinlərindən düzəldilmiş ikiqat qapalı eşmələr abidəni dövrəyə alır və yuxarı hissədə üçpərli çatma tağla qurtarır. Türbənin gövdənin oturacaqla birləşən, eləcə də günbəzə keçid hissəsi oyma qurşaqla bəzədilmişdir. Bu abidənin özünəməxsus xüsusiyyətlərindən biri ondan ibarətdir ki, memar onun üzərində müxtəlif rəsmli həndəsi ornamentləri türbənin səthi üzərində elə yerləşdirmişdir ki, ona baxanda həmişə qonşu səthlərdə müxtəlif ornamentlər görünür. Keçid yerində, türbənin bütün perimetri üzrə qurşağın altında relyefli ornament vardır. Ornament yaxşı işlənmiş ellipsformalı menandrdan ibarətdir. Ornament zolağının üstündə düzəldilmiş qurşaq türbənin yuxarı hissəsini kürsülükdən ayırır. Divar müstəvisindən xeyli kənara çıxan qurşaq türbəni halqa şəklində əhatə edir. Qurşaq hər birində üç hissə olan bölmələrdən ibarətdir. Ən çox irəli çıxan hissəni saxlamaq üçün iri stalaktik hücrələrin tinləri irəli çıxarılmışdır. Divar müstəvisinə keçid Səlcuqilər dövrünün bir çox abidələri üçün səciyyəvi olan orijinal detallarla – palmetlər vasitəsilə yerinə yetirilmişdir. Digər amillər kimi, bu memarlıq xüsusiyyəti də abidənin dövrünün daha dəqiq müəyyən olunmasında mühüm əhəmiyyət kəsb edir. Mənbələrə nəzər saldıqda görürük ki, Gülüstan türbəsinə bənzər olan, eyni arxitektura quruluşunda tikilən türbələr Azərbaycanın digər bölgələri ilə yanaşı, Anadoluda da geniş yayılmışdır. Bu türbə bir qrup tədqiqatçı tərəfindən Azərbaycan və Anadolu Səlcuq türklərinin soy birliyinin göstəricisi hesab edilir.

Gülüstan türbəsi ətrafında yerləşən I Gülüstan yaşayış yeri (XI-XVII əsrlər), II Gülüstan yaşayış yeri (X-IV əsrlər), Ölən şəhər (X-XVIII əsrlər), I Gülüstan nekropolu (XII-XIII əsrlər), II Gülüstan nekropolu (IV-VIII əsrlər), Ziya-ül Mülk körpüsü və karvansara (XII-XIII əsrlər) və digər abidələr türbə ilə bağlı aparılan tədqiqatların daha da dəqiqləşdirilməsində, bu ərazidə yaşamış insanların maddi və mənəvi mədəniyyətinin dərindən öyrənilməsində mühüm elmi əhəmiyyət daşıyır. Türbə ətrafındakı orta əsr abidələrindən əldə olunmuş arxeoloji materiallar tikili qalıqlarından və müxtəlif formalı keramika nümunələrindən, daş əmək alətlərindən ibarətdir. Tikili qalıqları möhrədən və çay daşlarından dördkünc planda tikilmişdir. Onlar əsas və yardımçı tikililər olmaqla, iki qrupa bölünür. Yaşayış yerindən əldə olunmuş keramikalar, əsasən, çəhrayı rənglidir. Keramikalar forma verən və forma verməyən hissələrdən ibarətdir. Forma verən keramikalar müxtəlif məişət və təsərrüfat qablarıdır. Təsərrüfat qabları nisbətən qalın divarlı, şirsiz düzəldilmişdir. Məişətdə işlədilmiş qablar nazik divarlı və şirlidir. Şirli qabların üzəri göy, yaşıl, sarı rənglərlə örtülmüşdür. Qabların bir qismi sadə olsa da, əksəriyyətinin üzəri həndəsi, nəbati, zoomorf ornamentlərlə naxışlanmışdır. Onlar insanların sənətkarlıq bacarığı ilə yanaşı, maddi və mənəvi mədəniyyəti, təsərrüfat həyatı ilə bağlı müəyyən süjetləri əks etdirir. Aparılan tədqiqatlardan məlum olur ki, Gülüstan türbəsi ətrafındakı abidələrdən əldə olunmuş keramikalar Azərbaycanın, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın orta əsrlər dövrünə aid abidələrinin bir çoxundan, o cümlədən Xarabagilan şəhər yerindən aşkar edilmişdir. Hər bir abidə kimi türbə ətrafındakı abidələrdən əldə olunmuş arxeoloji materiallar, xüsusən də keramika nümunələri, tikili qalıqları istər yaşayış yerinin tarixinin müəyyənləşdirilməsində, istərsə də türbə ilə bağlı aparılan elmi araşdırmaların daha da dərinləşməsində mühüm əhəmiyyət kəsb edir. Aparılan tədqiqatlar zamanı məlum olur ki, Azərbaycan tarixində şirsiz qablardan geniş istifadə olunduğu dövr IX-XI əsrləri əhatə edir. XI-XIII əsrlərdə Yaxın Şərqin müsəlman ölkələrində, o cümlədən Azərbaycanda şirli saxsı məmulatın istehsalı geniş vüsət alıbdır. Bu dövrdə istehsal olunmuş şirli qabların əksəriyyəti Gülüstan türbəsi ətrafındakı abidələrdən tapılmış keramikalar kimi qırmızı gilli olub, üzəri həndəsi, nəbati naxışlarla, yazılarla bəzədilmişdir. Gülüstan türbəsi ətrafındakı orta əsrlər dövrünə aid abidələrdən tapılan şirli və şirsiz gil qabların bənzərləri Naxçıvan Muxtar Respublikasının ərazisindəki həmin dövr abidələrinin bir çoxundan aşkar edilmişdir.

Gülüstan türbəsi ətrafında aparılan araşdırmalar sonda belə bir yekun nəticəyə gəlməyə əsas verir ki, bu türbə təsadüfən tikilməmişdir. Araz çayının sol sahilində, onun yaxınlığında yerləşən abidələrlə türbə arasında bağlılıq olmuşdur. Türbə ətrafındakı abidələr vahid arxeoloji kompleksə daxildir. Bu abidələrdən əldə olunmuş arxeoloji materiallar (keramika məmulatları, tikili qalıqları və sair), türbənin memarlıq xüsusiyyətində Səlcuqilər dövrünün abidələri ilə bənzər arxitektura quruluşunun olması, onun üzərindəki həndəsi ornamentlərlə Əcəmi memarlıq məktəbinə daxil olan digər abidələrin üzərindəki naxışlarla yaxınlıq və başqa faktlar Gülüstan türbəsinin XII əsrin memarlıq abidəsi olduğunu bir daha təsdiq edir.

**Toğrul XƏLİLOV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru, "Gülüstan türbəsi" tədqiqat qrupunun üzvü***

*Həkim məsləhəti*

## Poliomielit xəstəliyi barədə nələri bilməliyik?

***Bu gün uşaqları idarə olunan yoluxucu xəstəliklərdən qorumaq üçün Azərbaycan Respublikasının milli peyvənd təqvimi ilə 11 yoluxucu xəstəliyə qarşı peyvənd aparılır. Bu peyvəndlərin vurulması sayəsində kiçikyaşlı uşaqların çox vaxt ölümünə səbəb olan yoluxucu xəstəliklərin bir çoxu tamam ləğv edilmişdir. Bu xəstəliklərdən biri də uşaqlar üçün həyati təhlükə olan poliomielit xəstəliyidir.***

Azərbaycanda bu xəstəliyə 1996-cı ildən rast gəlinmir və respublikamız Avropanın bir çox inkişaf etmiş ölkələri ilə yanaşı, 2002-ci ildən poliomielit xəstəliyindən azad ölkə kimi tanınır. Lakin bütün dünyada həmin xəstəlik ləğv edilməyənə qədər ona yoluxma təhlükəsi qalır. Bu səbəbdən də digər peyvəndlərlə yanaşı, bu peyvənd bu gün respublikamızda qrafik əsasında aparılır.

Poliomielit xəstəliyi viruslar tərəfindən törədilən, beynin boz maddəsinin iltihabıdır. Sinir sisteminin zədələnməsi, ətraflarda baş verən ifliclərlə, nəticədə isə artrozlarla, kontrakturalarla xarakterizə olunur. Əsas infeksiya mənbəyi xəstə və virusgəzdirən insanlardır. Yoluxma yolu ağızın selikli qişasıdır (çirkli əllər, yoluxmuş qida, əşyalar, oyuncaqlar, çirkab suları və sair). Poliomielitə, adətən, 15 yaşına qədər uşaqlar, nadir hallarda isə böyüklər də yoluxa bilərlər. Ancaq, əsasən, 5 yaşına qədər uşaqlar xəstələnirlər. Poliomielitin ilkin əlamətləri yoluxmadan sonra 3-35 gün ərzində müşahidə olunur. Xəstəlik, adətən, soyuqdəymə simptomları ilə başlayır: başağrısı, qusma, iştahasızlıq, yuxunun pozulması, hərarətin yüksəlməsi və sair. Bir qədər sonra xəstənin ətraflarında möhkəm əzələ ağrıları və süst ifliclər inkişaf edir. Bu zaman ətraflardan birinin, yaxud hər ikisinin hərəki aktivliyi itir və tənəffüs əzələlərinin iflici nəticəsində tənəffüs çətinləşir, təngnəfəslik artır. Xəstəliyin ilk günlərindən eyni zamanda qarında ağrılar, bəzən ishal və ya qəbizlik olur. Ağrı hissiyyatının çox olması ilə əlaqədar məcburi vəziyyət yaranır, meninqeal əlamətlər inkişaf edir, əzələlərdə süst ifliclər daimi xarakter daşıyır və ətrafların kontrakturası ilə nəticələnir. Poliomielit əleyhinə xüsusi müalicə yoxdur. Xəstənin müalicəsi yalnız xəstəliyin simptomlarının (yüksək hərarətin, iştahasızlıq, əzələ, baş ağrıları və sair) yüngülləşdirilməsindən ibarətdir. Poliomielit keçirmiş xəstələrin çoxu ciddi iflic qalıqları ilə üzləşir. Adekvat fizioterapiya müalicəsi olmadıqda iflicə məruz qalmış əzələlərin funksional aktivliyi bərpa olunmur. Ona görə poliomielitin müalicəsində əsas yeri kontrakturaların profilaktikası tutur – masaj, müalicə bədən tərbiyəsi, ortopedik tədbirlər.

Poliomielitin yeganə profilaktikası peyvənd yoludur. Bu gün respublikamızda poliomielitə qarşı peyvənd uşağın 4-5 günlüyündə, 2, 3, 4 aylığında və 18 aylığında (1 yaş 6 aylıq) aparılır. Peyvənd maye şəklində pipetlə ağıza damızdırılır. Effektiv immunitet yaradılması üçün uşaq 5 peyvəndi almalıdır. Peyvənd üçün, demək olar ki, əks-göstəriş yoxdur, peyvənddən sonra əlavə təsirə rast gəlinmir.

*Hörmətli valideynlər! Uşaqlarınızın sağlamlığı üçün onların vaxtında peyvənd olunmasına şərait yaradın. Gələcəyimiz olan uşaqların sağlamlığının qorunması hamımızın ümumi işidir.*

**İbrahim AĞAYEV**
***Azərbaycan Respublikasının Əməkdar həkimi***

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında gənclər arasında boks üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.***

*İdman xəbərləri*

## Boks üzrə Naxçıvan şəhər açıq birinciliyi başa çatıb



Naxçıvan Muxtar Respublikası Boks Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilən yarışda 11 çəki dərəcəsində 30-dan çox idmançı mübarizə aparıb. Açıq birincilikdə Naxçıvan şəhərinin idmançıları ilə yanaşı, Kəngərli, Şərur və Culfa rayonlarının dəri əlcək ustaları da iştirak ediblər.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışın yekun nəticəsinə əsasən, Sənan Rzayev (Culfa rayonu), Arif Bayramov (Naxçıvan şəhəri), Yenisey İmanov (Naxçıvan şəhəri), Elnur Mustafayev (Şərur rayonu), Yunus Emre Erol (Naxçıvan şəhəri), Yuris Allahverdiyev (Naxçıvan şəhəri), Məhəmməd Bayramov (Kəngərli rayonu), Qənbər Abdullayev (Naxçıvan şəhəri), Turqay Məmmədov (Şərur rayonu), Toğrul İsmayılov (Naxçıvan şəhəri) və Rasim İsgəndərov (Şərur rayonu) müvafiq çəki dərəcələrində bütün rəqiblərinə qalib gələrək birinci yerə layiq görülüblər.

Sonda hər çəki dərəcəsində ilk üç yeri tutan idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları təqdim edilib.

## Sərbəst güləş üzrə yoldaşlıq görüşü



İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında "Naxçıvan" və "Şərur" komandaları arasında sərbəst güləş üzrə yoldaşlıq görüşü təşkil edilib.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov və Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov çıxış edərək yarışın keçirilmə məqsədi və qaydaları haqqında idmançılara geniş məlumat veriblər.

Beynəlxalq Güləş Federasiyasının mövcud qaydalarına əsasən keçirilən və Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası, Naxçıvan Şəhər və Şərur Rayon Gənclər və İdman idarələrinin təşkil etdiyi yoldaşlıq görüşündə 9 çəki dərəcəsində 60 idmançı mübarizə aparıb. 6:3 hesabı ilə "Naxçıvan" komandasının qalib gəldiyi yarışda fərqlənən idmançılara təşkilatçıların diplomları təqdim edilib.

## Cüdoçularımız ölkə miqyaslı turnirdən medallarla qayıdıblar

Ötən həftə Sumqayıt şəhərində ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş cüdo üzrə oğlanlar arasında IV şəhərlərarası turnir keçirilib. 2002-2004-cü il təvəllüdlü idmançıların iştirak etdiyi turnirdə Naxçıvan cüdoçuları da mübarizə aparıblar.

3 gün davam edən turnirdə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirmələri 3 medal qazanıblar. 66+ kiloqram çəki dərəcəsində Qabil Musayev bütün rəqiblərini üstələyərək turnirin qalibi olub. 34 kiloqram çəki dərəcəsində Abbas Məmmədov və 38 kiloqram çəki dərəcəsində Fuad Əşrəfli isə turniri bürünc medalla başa vurub.

Sonda qalib idmançılarımıza təşkilatçılar tərəfindən diplom və medal təqdim olunub.

✍ **Ceyhun MƏMMƏDOV**

***Bildiriş***

Naxçıvan Dövlət Universiteti 2015-2016-cı tədris ilinin payız semestrinin imtahan sessiyası ilə əlaqədar aşağıdakı məlumatı qiyabi təhsil alan tələbələrin nəzərinə çatdırır:

1. Universitetin qiyabi şöbəsinin bütün ixtisaslarında (əlavə ali təhsil də daxil olmaqla) 2015-2016-cı tədris ilinin payız semestrinin imtahan sessiyası 5 yanvar 2016-cı il tarixdən başlayır və müvafiq olaraq 15-20 iş günü davam edəcəkdir.
2. Bütün tələbələrin sessiyada iştirakı zəruridir.

**REKTORLUQ**

***İtmişdir***

Naxçıvan şəhər sakini Rüstəmov Nizami Əsəd oğlunun adına olan JN-8$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Səbuhi Həsənov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 4020. Sifariş № 922**